## Azərbaycan İKT-nin tətbiqi üzrə MDB-də ən qabaqcıl ölkədir

Azərbaycanda tətbiq olunan ən son informasiya-kommunikasiya texnologiyaları, elektron xidmətlər dünyanın nüfuzlu qurumları tərəfindən təqdir olunmaqdadır. Həmin təşkilatlar hazırda ölkəmizdə böyük innovativ texnoloji dəyişikliklərin olmasını xüsusi qeyd edirlər. Bu cür nüfuzlu qurumlardan olan «ICD» analitik şirkəti MDB ölkələrinin informasiya texnologiyaları ilə bağlı həyata keçirdiyi tədbirləri qiymətləndirərək Azərbaycanı bu sahədə qabaqcıl dövlət hesab edir. Şirkətin Mərkəzi Asiya ölkələri üzrə rəhbəri Andrey Beklemişevin sözlərinə görə, İKT Azərbaycan üçün hazırda ən prioritet sahələrdən biri kimi mühüm yer tutur və bu sahədə inkişaf tempi iqtisadi sektorlar arasında əsas yerə malikdir. Bu temp gələcəkdə də qorunacaq, çünki dövlət tərəfindən mövcud sektora iri investisiyalar gözlənilir.

Qeyd olunduğuna görə, Azərbaycanda iqtisadiyyatın yeni inkişaf ssenarisinə uyğun olaraq qeyri-neft sektoru aparıcı yer tutur və burada İKT sektoru xüsusi mövqeyə malikdir. Son illər İKT Azərbaycanın sosial-iqtisadi yüksəlişinə xidmət edən sektor kimi prioritet sahəyə çevrilib və bu sahə üzrə ölkəmizin göstəriciləri xeyli yüksəlib. Son 10 ildə Azərbaycan İKT sahəsinin inkişafı üzrə 10 ən yüksək inkişaf etmiş ölkə sırasında yer alıb. Artıq 8-ci ildir ki, Azərbaycanın İKT sahəsinin orta illik inkişaf tempi 25-32% təşkil edir. Ölkədə İKT öz spektrini genişləndirib, bu istiqamətdə işlər davam etdirilir. Bu gün Azərbaycanda İKT sektoru həm dünyada yeni texnologiyaların tətbiqinin geniş vüsət aldığı bir şəraitdə, həm də Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı fonunda genişlənir, modernləşir və ölkənin hərtərəfli tərəqqisinə öz töhfəsini verməkdədir.

«Multimedia» mərkəzinin rəhbəri Osman Gündüz hesab edir ki, son illər dünyanın nüfuzlu təşkilatlarının Azərbaycan barədə müsbət qiymətləndirmələri İKT ilə bağlı görülən real işlərin nəticəsi sayıla bilər. Azərbaycanda ən çox artım tempi İKT-də müşahidə olunur. 2012-ci ilin birinci yarısında bu sektor üzrə artım tempi 18% olub. Hazırda Azərbaycan hökuməti milli informasiya məkanının formalaşması, dünya informasiya məkanına inteqrasiyası, qlobal informasiya sistemlərinin yaradılması proseslərində fəal iştirak edən ölkə kimi yer alır. BMT-nin bu günlərdə açıqladığı «E-idarəçilik 2012» adlı hesabatında dövlət xidmətlərinin göstərilməsində İKT-dən istifadə üzrə dövlət orqanlarının hazırlığı və mövcud imkanları qiymətləndirilib. Respublikamız MDB-də Rusiya və Ukraynadan sonra «e-idarəçilik» imkanlarına görə ən yaxşı mövqeyə malik ölkə kimi qiymətləndirilib. Elektron iştirak indeksi üzrə mövcud əmsal, eləcə də onlayn xidmətlərin miqyası ilə bağlı yüksək qiymətləndirmə respublikamızda elektron cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımların atılmasını şərtləndirir.

O.Gündüz hazırda qlobal informasiyalaşdırma və ümumdünya informasiya cəmiyyətinin formalaşdırılması sahəsində ən çox nəzərə çarpan tendensiya kimi elektron hazırlığın inkişafının sürətlənməsinə diqqət çəkərək, bu sahədə də ölkəmizin əhəmiyyətli dərəcədə irəliləyişlər əldə etdiyini bildirir. Elektron hazırlığın güclü olması həmin ölkədə e-xidmətlərin genişliyinə də mühüm təsir göstərir. Azərbaycanın inkişaf etmiş dövlətlərin ən qabaqcıl texnologiyalarını tətbiq edərək həyata keçirdiyi strategiya ölkəmizdə «elektron-hökumət» quruculuğu üçün çoxsistemli idarəetmə mexanizmlərinin formalaşdırılmasına şərait yaratmışdır.

Elbrus CƏFƏROV